# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2014-cü ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 1-ci səhifədə).

İctimai həyatımızda baş verən əsas əlamətdar hadisə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il yanvarın 3-də və sentyabrın 22-də Qəbələyə səfərləri olmuşdur. Səfərlər zamanı dövlət başçısı bir çox mühüm sosial və iqtisadi xarakterli obyektlərin açılışında iştirak etmiş, inşaat işləri davam edən tikintilərdə işlərin gedişi ilə maraqlanmışdır. Görülmüş işlər barədə fikirlərini bildirən ölkə başçısı qarşımıza yeni vəzifələr qoymuşdur.

**Hörmətli yığıncaq iştirakçıları!**

Qəbələ rayonunun ərazisi 1548 kvadratkilometr, əhalisi 101549 nəfərdir. Əhalinin 78,9 faizini azərbaycanlılar, 17,1 faizini ləzgilər, 3,7 faizini udilər, 0,1 faizini türklər, 0,2 faizini isə digər millətlərin nümayəndələri təşkil edir. Rayonda 1 şəhər, 3 qəsəbə, 60 kənd vardır. Yaşayış məntəqələrində 60 icra nümayəndəliyi, 29 bələdiyyə fəaliyyət göstərir.

Ötən müddət ərzində rayonda iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 239.304 min manatlıq məhsul istehsal edilmişdir. Bu da keçən ilin müvafiq dövrünə (234.890 min manat) nisbətən 4.414 min manat, yaxud 1,8 faiz çox olmuşdur.

Cari ildə keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 1.602 min manat, yaxud 7,5 faiz, kənd təsərrüfatında 2.075 min manat, yaxud 3,7 faiz, tikintidə 65 min manat, yaxud 0,1 faiz, nəqliyyatda 48 min manat, yaxud 1,5 faiz, rabitədə 130 min manat, yaxud 14,2 faiz, ticarətdə 499 min manat, yaxud 1,8 faiz artmışdır. Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 2.356 manat təşkil etmişdir. Bu da keçən ilin müvafiq dövrünə nisbətən (2.352 manat) 4 manat çox olmuşdur.

Sənaye mallarının istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 60,7 faiz təşkil etmişdir. İl ərzində sənaye müəssisələrində çalışan 851 nəfər işçinin orta aylıq nominal əmək haqqı 404 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 13 faiz çox deməkdir.

> **Qəbələ Azərbaycanın qədim torpağıdır, tarixi diyardır. Hələ eramızdan əvvəl müxtəlif yazılı mənbələrdə Qəbələnin adı çəkilir. Dünya tarixində Qəbələnin özünəməxsus yeri vardır. Bu, bizim böyük sərvətimizdir. Biz öz tarixi irsimizə həmişə böyük hörmət və diqqətlə yanaşmalıyıq. Bu baxımdan, Azərbaycan tarixində, Azərbaycanın keçmişində və bu günündə Qəbələnin rolu çox mühüm və önəmlidir.**
>
> ***İlham ƏLİYEV.***



*«Tufandağ» qış-yay turizm istirahət kompleksinin birinci mərhələsinin açılışında.*



2003-cü ilin oktyabr ayından 2015-ci ilin yanvar ayınadək 12.696 yeni iş yeri açılmışdır. Ondan 10.648-i daimi iş yeridir. İl ərzində açılmış yeni iş yerlərinin sayı 893 olmuşdur. Həmin iş yerlərinin hamısı daimi iş yeridir.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 131.223 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 127.580 min manat təşkil etmişdir. Əvvəlki illə (128.242 min manat) müqayisədə əsas kapitala yönəlmiş investisiyanın həcmi 2,981 min manat, yaxud 2,3 faiz artmışdır.

Rayonun yerli gəlirləri 2014-cü ildə 10.124 min manat proqnoza qarşı 10.199,5 min manat (101 faiz) və ya 75,5 min manat çox, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 10.495 min manat dürüstləşdirilmiş proqnoza qarşı 10.495 min manat (100 faiz), yerli xərcləri dürüstləşdirilmiş 20.619 min manat proqnoza qarşı 20.053,9 min manat (97faiz) və ya 565,1 min manat az icra olunmuşdur.

Rayonun yerli xərcləri təhsil xərcləri üzrə 368,3 min manat, səhiyyə xərcləri 66,1 min manat, icra hakimiyyəti orqanlarının saxlanması xərcləri 64,2 min manat, mədəniyyət xərcləri 50,5 min manat, digər xərc maddələri üzrə 16 min manat olmaqla, ümumilikdə il üzrə 565,1 min manat təyinatdan az icra olunmuşdur. Yerli xərclərin 565,1 min manat təyinatdan az icra olunmasının səbəbi bəzi xərc maddələri üzrə faktiki icranın tam yerinə yetirilməməsi olmuşdur. Müəyyən edilmiş bölgü üzrə il ərzində vəsaitin düzgün proqnozlaşdırılmaması səbəbindən bütün xərclər üzrə təyinatdan az xərcələnmişdir.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 3-ü - əlavə dəyər vergisi, dövlər rüsumu və sair daxilolmalar üzrə proqnoz tapşırıqlar kəsrlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 333,2 min manat az vəsait daxil olmuşdur. Digər növ gəlirlər üzrə 408,7 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 75,5 min manat çox yerinə yetirilmişdir. Yerli büdcənin hesabında 01 yanvar 2015-ci il tarixə 640,6 min manat vəsait qalığı yaranmışdır.

(Ardı 3-cü səhifədə).